# REGİONAL HÖKUMƏTLƏRARASI TƏŞKİLATLAR VƏ BEYNƏLXALQ QEYRİ-HÖKUMƏT TƏŞKİLATLARININ ƏMƏKDAŞLIĞININ HÜQUQİ TƏNZİMLƏNMƏSİ

**Elnarə Mirzəyeva,**
**Bakı Dövlət Universiteti Hüquq fakültəsinin "Beynəlxalq xüsusi hüquq və Avropa hüququ" kafedrasının dosenti, hüquq üzrə fəlsəfə doktoru.**
e-mail: elnaramirzayeva@mail.ru

*Məqalədə regional hökumətlərarası təşkilatlar və beynəlxalq qeyri-hökuməttəşkilatlarının əməkdaşlığının hüquqi tənzimlənməsi məsələləri hüquq ədəbiyyatında mövcud fikir müxtəlifliyi, beynəlxalq hüquq normaları və beynəlxalq praktika əsasında geniş təhlil edilir. Belə bir nəticəyə gəlinir ki, regional hökumətlərarası təşkilatların beynəlxalq qeyri-hökumət təşkilatları ilə əməkdaşlığının hüquqi tənzimlənməsinin əhəmiyyəti ondan ibarətdir ki, bir tərəfdən, ayrı-ayrı regional beynəlxalq təşkilatların müvafiq səlahiyyətlərinin realizəsində vətəndaş cəmiyyətinin iştirakının təmin olunmasına təkan verilir. Digər tərəfdən, beynəlxalq qeyri-hökumət təşkilatlarının regional hökumətlərarası qurumlarla əməkdaşlığı müvafiq regional səciyyəvi xüsusiyyətlər nəzərə alınmaqla, vətəndaş cəmiyyətinin inkişafına öz töhfəsini bəxş edir. Bu həm də mövcud nöqsan və çatışmazlıqların aşkar olunması və aradan qaldırılmasına əsaslı təsir göstərir.*

**Açar sözlər:** regional hökumətlərarası təşkilatlar, beynəlxalq qeyri-hökumət təşkilatları, beynəlxalq təşkilatlar, insan hüquqlarının müdafiəsi, vətəndaş cəmiyyəti, beynəlxalq əməkdaşlıq, regional əməkdaşlıq.

Müasir dövrdə beynəlxalq qeyri-hökumət təşkilatlarının (BQHT) fəaliyyəti və rolu təkcə onların BMT-nin İqtisadi və Sosial Şurası (EKOSOK) yanında məşvərətçi statusa malik olması ilə məhdudlaşmır, eyni zamanda, regional hökumətlərarası qurumların fəaliyyətində yaxından iştirakı, habelə qarşılıqlı əməkdaşlığın inkişafı baxımından, mühüm əhəmiyyət kəsb edir. Universal mexanizmlərdən fərqli olaraq, regional hökumətlərarası təşkilatlar təbiəti və məzmunu etibarilə daha çevik və dəyişkən xüsusiyyətlərə, özünəməxsus fərqli aspektlərə malikdir. Eyni zamanda, bir məsələni unutmaq olmaz ki, regional səviyyədə məhkəmə müdafiəsi mexanizmlərinin, xüsusilə insan hüquqlarının regional məhkəmə müdafiəsinin geniş vüsət alması BQHT-in fəaliyyətinin vacibliyini şərtləndirən amillər qismində çıxış edir. Məhz bu baxımdan, bir sıra regional beynəlxalq hökumətlərarası təşkilatların normayaradıcılıq prosesində və fəaliyyətində BQHT-in iştirakı, habelə qarşılıqlı əməkdaşlığın təmini istiqamətində həyata keçirilən tədbirlərin təhlili mühüm əhəmiyyət kəsb edir. İlk növbədə, qeyd etmək yerinə düşərdi ki, regional çərçivədə mövcud olmasına baxmayaraq, insan hüquqlarının müdafiəsi sahəsində beynəlxalq hüququn inkişafına yetərincə töhfə bəxş edən Avropa Şurası BQHT ilə əməkdaşlığın inkişafına xüsusilə diqqət yetirir. Bu, bir tərəfdən, sözügedən beynəlxalq təşkilatın məqsədləri sayılan insan hüquqla-

rının müdafiəsi, demokratiyanın təmin olunması, hüququn aliliyinin bərqərar edilməsinə yardım göstərilməsi, digər tərəfdən isə Avropa Şurasının öz fəaliyyətinin demokratik ruhda inkişaf etdirilməsinə təsir edir. Bununla yanaşı, insan hüquqlarının müdafiəsinin, habelə bu sahədə üzv-dövlətlərin öhdəliklərinin düzgün və lazımi qaydada realizəsinin təmini üçün BQHT-in iştirakı, obrazlı şəkildə ifadə etsək, "ədalət tərəzisi"nin düzgün tənzimlənməsinə xidmət edir.

Doğrudur, 1949-cu ildə təsis olunan Avropa Şurasının Nizamnaməsində qeyri-dövlət iştirakçıları barədə konkret norma öz əksini tapmasa da, vətəndaş cəmiyyətinin inkişafına şərait yarada biləcək müddəalara rast gəlmək mümkündür. Belə ki, Nizamnamənin preambulasında ifadə olunan "həqiqi demokratiya" termini öz-özlüyündə "insan hüquqlarının müdafiəsi", "hüququn aliliyi" və "vətəndaş cəmiyyəti" kimi anlayışlarla sıx bağlılığa malikdir. Hətta BQHThesab edirlər ki, həqiqi demokratiya insan hüquqlarına hörmət, hüququn aliliyi və ictimai həyatda bütün insanların iştirak imkanlarına əsaslanan siyasi, hüquqi və mədəni sistem sayılmalıdır. Bir sözlə, bütün səviyyələrdə səmərəli demokratiya və idarəetmənin qurulmasına birbaşa olaraq vətəndaşların və onların birliklərinin fəal iştirakı vasitəsilə nail olmaq mümkündür (1). Bundan əlavə, Avropa Şurası çərçivəsində BQHT ilə bağlı bir sıra beynəlxalq sənədlər qəbul olunmuşdur. Məsələn, Avropa Şurası Nazirlər Komitəsinin 1951-ci il tarixli "Hökumətlərarası və qeyri-hökumət təşkilatlarının ifadə olunduğu beynəlxalq təşkilatlarla əlaqələr haqqında" 51 nömrəli Qətnaməsi, "Avropa Şurası və BQHT arasında əlaqələr haqqında" 1972-ci il tarixli 72/35 nömrəli Qətnaməsi, "BQHT-nin Avropa Şurası yanında iştirakçı statusu haqqında" 2003-cü il tarixli 8 nömrəli Qətnaməsi və s.

Avropa Şurası Nazirlər Komitəsinin 2016-cı il tarixli "BQHT-nin Avropa Şurasında iştirakçı statusu haqqında" Qətnaməsində Avropa Şurası tərəfindən BQHT-ə bu statusun təqdim olunmasının əsasları göstərilmişdir. Buraya Avropa Şurasının dəyər və prinsiplərinə hörmət olunması və müdafiəsini təmin edən, demokratik prinsiplərə uyğun şəkildə qəbul olunmuş konstitusion aktı əsasında yaradılan, demokratik struktur və idarəetməni özündə birləşdirən, Avropa Şurası ilə işçi münasibətlərə daxil olan, Avropa Şurasının işi barədı cəmiyyətə məlumat çatdırmaq imkanlarına malik və s. xüsusiyyətləri özündə birləşdirən BQHTaiddir. Bundan əlavə, BQHT-in Avropa Şurasında iştirakının üsulları da müəyyən edilmişdir. Məsələn, Avropa Şurasının Baş Katibinə memorandumla müraciət etmə, Yerli və Regional Hakimiyyətlər Konqresinin açıq iclaslarına dəvət edilmə, fəaliyyəti, təcrübə və ekspert məsləhətləşmələri vasitəsilə Avropa Şurasının siyasət, proqram və fəaliyyət istiqamətlərinə dair müzakirələrdə iştiraka dəvət olunma və s.

Bundan əlavə, AŞPA-nın "Assambleya və BQHTKonfransı arasında əməkdaşlıq haqqında" 2007-ci il tarixli 1589 nömrəli Qətnaməsi təşkilatla BQHTarasında əməkdaşlığın inkişafı üçün bir sıra tədbirlərin görülməsini nəzərdə tutur. Məsələn, BQHT ilə əməkdaşlıq üçün çoxistiqamətli işlərin görülməsi, əməkdaşlığın aktual məsələlərinə dair parlamentarilərin və BQHT-in nümayəndələrinin iştirak etdiyi dinləmələrin təşkili, məlumat mübadiləsi və əlaqələndirilməsinin genişləndirilməsinə yardım göstərilməsi məqsədilə seçkilərlə bağlı müşahidə missiyasının həyata keçirilməsi zamanı ixtisaslaşmış BQHT ilə sonrakı əməkdaşlığın öyrənilməsi və s.Bütövlükdə, Avropa Şurasının BQHT

ilə qarşılıqlı fəaliyyəti iki istiqamət üzrə nəzərdən keçirilməlidir:BQHT-in statusu və onların Avropa Şurasının fəaliyyətində iştirakına zəmin yarada biləcək tənzimetmə vasitələri olan hüquq normalarının qəbulu və realizəsi; Avropa Şurası ilə BQHT-in əməkdaşlığın qurulması və inkişaf etdirilməsinin müxtəlif aspektlərinə dair fəaliyyət istiqamətlərinin həyata keçirilməsi ilə bağlı təşkilatdaxili institusional mexanizmlərin rolu.

Bununla yanaşı, Avropa regionunda digər beynəlxalq təşkilatların qəbul etdiyi və BQHT-in fəaliyyətində mühüm rol oynaya biləcək sənədlər (məsələn, İnsan hüquqları və insan təhlükəsizliyi, o cümlədən gender bərabərliyi sahəsində inkişafa təsir göstərən mühüm sənədlərdən biri ATƏM-in (hazırkı ATƏT-in) 1991-ci il tarixli Moskva Sənədi (2) və s.) də mövcuddur.

Amerika Dövlətləri Təşkilatı (ADT) çərçivəsində qeyri-hökumət təşkilatları (QHT) vətəndaş cəmiyyəti təşkilatlarına verilən tərif kontekstində nəzərdən keçirilir. Belə ki, həmin sənədə uyğun olaraq, vətəndaş cəmiyyəti təşkilatları dedikdə, fiziki şəxslərdən və ya qeyri-dövlət xarakterli hüquqi şəxslərdən ibarət istənilən milli və ya beynəlxalq institut, təşkilat, yaxud təsisat başa düşülür. Bundan əlavə, qeyd etmək lazımdır ki, vətəndaş cəmiyyəti təşkilatları ADT-nin iclaslarında üç üsulla iştirak edə bilərlər. Birinci halın realizəsi müvafiq təşkilatların ADT yanında qeydiyyatdan keçməsi ilə mümkündür. İkinci halın mahiyyəti ondan ibarətdir ki, qeydiyyatdan keçmədən iştirak arzu olunduğu təqdirdə, vətəndaş cəmiyyəti təşkilatları "xüsusi qonaq" statusu ilə iştirak barədə xahişlə müraciət etməklə, ADT-nin Baş Assambleyası, Daimi Şura və Ümumi İnkişaf üzrə Amerikaarası Şuranın iclaslarında, habelə təşkilatın keçirtdiyi digər ixtisaslaşmış və aidiyyəti konfranslarda iştirak edə bilərlər. Üçüncü üsulun həyata keçirilməsi isə birgə proqramların işlənib hazırlanması məqsədilə ADT-nin Baş Katibliyi ilə əməkdaşlıq sazişlərinin imzalanması yolu ilə təmin edilir. Eyni zamanda, ADT yanında qeydiyyatdan keçən və təşkilatın fəaliyyətində iştirak etmək üçün Daimi Şuranın qəbul etdiyi vətəndaş cəmiyyəti institutları müəyyən üstünlük və imtiyazlar əldə edirlər (3).

Digər regional mexanizmlərdən fərqli olaraq, ADT-nin Baş Assambleyası son onilliklər ərzində, demək olar ki, bütün sessiyalarında vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlığın inkişafına xüsusi önəm verməkdədir. Bu prioritetliliyə meyllilik təkcə özünü Baş Assambleyanın gündəliyinə vətəndaş cəmiyyəti institutları ilə bağlı məsələlərin müzakirəsinin daxil edilməsində deyil, həm də hər bir sessiyanın nəticələrini ifadə edən qətnamə və digər beynəlxalq sənədlərin qəbulunda büruzə verir. Məsələn, "ADT və vətəndaş cəmiyyəti haqqında" Qətnamə (1998), "Hökumətlər və vətəndaş cəmiyyəti arasında əməkdaşlığın gücləndirilməsi haqqında" Qətnamə (1999), "Amerika Dövlətləri Təşkilatı və vətəndaş cəmiyyəti haqqında" Qətnamə (1999), "2002-2005-ci illər üzrə inkişaf naminə tərəfdaşlıq üzrə Strateji Planın qəbulu haqqında" Qətnamə (2002), "Yarımkürədə korporativ sosial məsuliyyətin təşviqi haqqında" Qətnamə (2002), "Şimali və Cənubi Amerikada insan hüquqları və ətraf mühit haqqında" Qətnamə (2002), "Qadınların hüquqları, gender bərabərliyi və bərabərliyin təşviqi haqqında" Qətnamə (2003), "Amerikada demokratik idarəetmə üzrə Proqram haqqında" Qətnamə (2004), "Demokratiyanın təşviqi və möhkəmləndirilməsi haqqında" Qətnamə (2004), "İnsan

alveri, xüsusilə qadın, yeniyetmə və uşaq alveri cinayəti ilə mübarizə haqqında" Qətnamə (2004), "Yoxsulluq, ədalət və sosial inteqrasiya haqqında" Qətnamə (2004), "ADT-nin fəaliyyət istiqamətlərində və zirvə toplantılarında vətəndaş cəmiyyətinin iştirakının artırılması və gücləndirilməsi haqqında" Qətnamə (2005)və s.

Həmçinin, qeyd etmək lazımdır ki, ADT və təşkilata üzv-dövlətlərin ictimai həyatında BQHTtam yaxından iştirak edirlər ki, bu hal vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlığın praktiki aspektlərinin inkişafına müsbət təsirini göstərir. Bunun bariz nümunəsi kimi 1990-cı ildə Nikaraquada keçirilən prezident və parlament seçkilərində həlledici rola malik olmaqla, seçki institutunun və səsvermə zamanı müşahidə prosesinin inkişafında özünəməxsus xidmətləri olan Karter Mərkəzini göstərmək olar. Hətta BQHT-in bəzi görkəmli və məşhur üzvləri (məsələn, Beynəlxalq İnsan Hüquqları Hüququ üzrə Qrupundan Leri Karter) sözügedən prosesdə yaxından iştirak məqsədilə Nikaraquada ADT komandasının tərkib hissəsində çıxış etmiş və sözügedən beynəlxalq təşkilatı təmsil edən müşahidəçilərin istifadə edəcəyi təlimatı işləyib hazırlamışdır (4).

Bundan əlavə, vətəndaş cəmiyyəti institutlarının iştirakının vacib olduğu sahələrdən biri də məhz seçkilərə ictimai nəzarətin təmin edilməsi ilə bağlıdır ki, bu da özünü Amerika qitəsində də büruzə vermişdir. Hətta demokratik sahədə boşluqların doldurulması üçün seçkilərin beynəlxalq monitorinqi işinə BQHTcəlb edilmişdir. Məhz bu tendensiya XX əsrin 70-ci illərində Latın Amerikasında demokratikləşmə prosesinin sürətləndirdi. Belə ki, 1978-ci ildə müxalifət Dominikan Respublikasında hakimiyyətə dinc şəkildə gəlmiş, 1979-cu ildə isə Ekvadorda yeni konstitusiyanın qəbulu və prezident seçkisi keçirilmişdir. Nəticədə hərbi diktaturadan sonra konstitusion yolla və demokratik əsaslarla Xayme Roldos Aqilera dövlət başçısı seçilmişdir. Eyni zamanda, Peruda Fernando Belaunde 1980-ci ildə ümumxalq səsvermə nəticəsində hakimiyyətə qayıtmış, 1984-cü ildə Argentinada 8 illik hərbi idarəetmə başa çatmış, 1985-ci ilin yanvarında isə Braziliyada mülki idarəetmə mexanizmi fəaliyyətə başlamışdır (5).

Digər regional təşkilatın – Afrika İttifaqının Təsis Aktının (2000) preambulasında xalqlar arasında həmrəyliyin və birliyin möhkəmləndirilməsi məqsədilə hökumətlərlə vətəndaş cəmiyyətinin bütün tərkib hissələri, xüsusilə qadınlar, gənclər və özəl sektor arasında tərəfdaşlığın qurulmasının zəruriliyinə dair müddəa öz əksini tapmışdır (6). Bu müddəa dolayısı ilə bir neçə istiqaməti özündə ehtiva edir: vətəndaş cəmiyyətinin, o cümlədən QHT-in müasir cəmiyyətin qurulması və inkişafında aparıcı dayaqlardan birini təşkil etməsi; vətəndaş cəmiyyəti institutlarının cəmiyyətin konkret və aidiyyəti problemlərinin həllində fərdlərin və ya qrupların mövqeyini əks etdirməsi baxımından, onların təkbaşına deyil, dövlətlərin hökumətləri ilə qarşılıqlı əlaqədə fəaliyyətinin təmin olunması; dövlətdaxili səviyyədə fəaliyyət göstərən QHT-in "beynəlmiləlləşməsi" və ya onların lokal çərçivədən Afrika regionu səviyyəsinə çatdırılması, mümkün olduğu təqdirdə isə BQHT-ə çevrilməsinin dəstəklənməsi; vətəndaş cəmiyyəti institutları içərisində qadınlar və gənclərin hüquqlarının müdafiəsi, habelə onlarla bağlı digər təsisatlarının rolunun xüsusilə vurğulanması.

Həmçinin, Təsis Aktının 3-cü maddəsində təşkilatın vəzifələrindən biri kimi "demokratik prinsiplər və institutlar, əhalinin iştirakı və

yaxşı idarəçiliyin təşviqi"nin ehtiva olunması sözügedən regionda vətəndaş cəmiyyəti institutlarının, xüsusilə QHT-in fəaliyyətinin inkişafı üçün geniş imkanlar yaradır.Bundan əlavə, Afrika İttifaqı çərçivəsində qəbul olunan bir sıra beynəlxalq sənədlərdə də vətəndaş cəmiyyəti institutları, xüsusilə QHT ilə qarşılıqlı fəaliyyətin təşviq edilməsinin zəruriliyi xüsusilə vurğulanmışdır. Məsələn, 2003-cü ilin mayında keçirilən İnsan hüquqları üzrə Nazirlər Konfransında qəbul olunan Kiqali Bəyannaməsinin preambulasında göstərilmişdir ki, Afrikada insan hüquqlarının təşviqi və müdafiəsi sahəsində müdafiəçi qismində vətəndaş cəmiyyəti institutlarının mühüm rola malik olduqlarını tanımaqla, demokratiya və davamlı inkişafın təşviqində onların iştirakının təşviq olunması üzv-dövlətlərə və regional institutlara həvalə olunur. Eyni zamanda, sözügedən beynəlxalq sənəddə vətəndaş cəmiyyəti institutlarının müstəqil və şəffaf olmasının zəruriliyi xüsusilə vurğulanır (7). Yeri gəlmişkən, qeyd etmək lazımdır ki, Kiqali Konfransında qaçqınların müdafiəsi sahəsində vətəndaş cəmiyyəti təşkilatlarının rolunun artırılması istiqamətində müvafiq tədbirlərin görülməsi təklif edilmişdir: qaçqınların hüquqlarının təşviqi və müdafiəsində vətəndaş cəmiyyəti institutlarının əməkdaşlığı; qaçqınlara göstərilən yardımın təmin olunmasının həmin təşkilatların sərbəstliyi və müstəqilliyinə yönəlməsi; qaçqınları qəbul edən üzv-dövlətlərdə yerli potensial və imkanların təşviqi; qaçqınların repatriasiyasının asanlaşdırılması və buna köməklik göstərilməsi üçün üçtərəfli komissiyaların yaradılması sahəsində onları qəbul edən ölkələr və mənşə ölkələrinin BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı ilə əməkdaşlığının dəstəklənməsi (8).

Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilat – GUAM-ın Katibliyi haqqında Əsasnamənin 2-ci maddəsində (bənd 3.i) təsbit olunan Katibliyin funksiyalarından biri kimi təşkilatın tədbirlərində iştirak edən QHT ilə müvafiq məsləhətləşmələrin aparılması göstərilmişdir (9). Eyni zamanda, GUAM-ı digər regional beynəlxalq təşkilatlardan fərqləndirən cəhət ondan ibarətdir ki, sözügedən təşkilata sədrlik funksiyasını həyata keçirəcək istənilən üzv-dövlətin platformasında vətəndaş cəmiyyəti institutları və BQHT ilə əməkdaşlığın təşviqinə dair müddəa ehtiva edilmişdir. Qeyd olunan məsələyə Ukraynanın 2015-ci il, Azərbaycan Respublikasının isə 2016-cı il üzrə sədrlik proqramlarında rast gəlmək mümkündür. Həmin proqramlarda birgə təşəbbüs və layihələrin həyata keçirilməsi sahəsində "GUAM Gənclər Forumu" Beynəlxalq Vətəndaş Birliyi İttifaqına, habelə onun "Böyük İpək Yolu" Beynəlxalq Gənclər Birliyi ilə əməkdaşlığına köməklik göstərilməsinin fəaliyyətin bir hissəsi olduğu vurğulanmışdır (10).

Bir sıra hallarda nəinki konkret regional təşkilatlarla BQHT-in qarşılıqlı fəaliyyətinin araşdırılması mühüm əhəmiyyət kəsb edir, eyni zamanda, regionlararası vətəndaş cəmiyyəti institutlarının əməkdaşlığının nəzərdən keçirilməsi vacib amillərdən sayılır. Çünki sonuncu hal hər hansı fəaliyyət sferası ilə məhdudlaşmır, həmçinin, kompleks istiqamətdə müxtəlif regionların QHT ilə əməkdaşlığın zəruriliyini şərtləndirir. Bu əməkdaşlıq isə həm də qlobal səviyyədə dövlətlərin fəaliyyətinin müasir dövrdə meydana çıxan yeni yanaşmalar əsasında qurulmasına gətirib çıxarır. Obrazlı şəkildə ifadə etsək, həll edilməsi məqsədilə QHT-in regionlararası əmək-

daşlığı müasir dövrün problemlərini dövlətlərin “stolunun üzərinə qoyur və onların həllini daha sürətləndirir”. Bunun bariz nümunəsi qismində 11-13 iyul 2017-ci il tarixlərdə Tunisdə keçirilən “Afrika – Avropa İttifaqı Vətəndaş Cəmiyyəti Forumu”nu göstərmək olar ki, həmin tədbirdə qəbul olunan Bəyannamə dünya dövlətləri üçün həlli vacib olan problemlərin aradan qaldırılmasında vətəndaş cəmiyyəti institutlarının roluna toxunulmuşdur. Hətta bəyannamədə Birgə Afrika – Avropa İttifaqı Strategiyası çərçivəsində müstəqil iştirakçılar və mühüm tərəfdaşlar kimi hər iki qitənin vətəndaş cəmiyyəti institutları üçün məkanın formalaşdırılmasının zəruriliyi xüsusilə vurğulanır. Bütövlükdə isə Bəyannamədə vətəndaş cəmiyyəti institutlarının ayrı-ayrı məsələlər üzrə rolu aşağıdakı istiqamətlər üzrə müəyyən edilmişdir: münaqişələrin qarşısının alınması, sülhün bərqərar edilməsi və qaçqınlar probleminin həlli; demokratik idarəetmə və vətəndaş iştirakının təmin olunması; insan inkişafının təmini; layiqli əmək, universal sosial müdafiə və davamlı iqtisadi-sosial inkişaf; planet üçün davamlı gələcəyin təmin olunması.

Beləliklə, regional hökumətlərarası təşkilatların BQHT ilə əməkdaşlığının hüquqi tənzimlənməsinin əhəmiyyəti ondan ibarətdir ki, bir tərəfdən, ayrı-ayrı regional beynəlxalq təşkilatların müvafiq səlahiyyətlərinin realizəsində vətəndaş cəmiyyətinin iştirakının təmin olunmasına təkan verilir. Digər tərəfdən, BQHT ilə regional hökumətlərarası qurumların əməkdaşlığı müvafiq regional səciyyəvi xüsusiyyətlərnəzərə alınmaqla, vətəndaş cəmiyyətinin inkişafına öz töhfəsini bəxş edir. Bu həm də mövcud nöqsan və çatışmazlıqların aşkar olunması və aradan qaldırılmasına əsaslı təsir göstərir.

**İstifadə edilmiş mənbələr**

1. Канунников А.А. Международные неправительственные организации в Совете Европы // Мировая экономика и международные отношения, 2017, том 61, № 6, с. 38-39 (с. 33-40)
2. Arie Bloed (ed.), The Conference on Security and Co-operation in Europe, Analysis and Basic Documents, 1972-1993, Dordrecht 1993, pp. 605-629.
3. www.oas.org/en/ser/dia/civil_society/Status. shtml
4. Santa-Cruz A. Election monitoring and the Western Hemisphere idea. In: Promoting democracy in the Americas. Edited by Th.Legler, Sh.F.Lean, D.Boniface. Baltimore: The Johns Hopkins University Press, 2007, p. 146 (pp. 133-151)
5. Santa-Cruz A. International election monitoring, sovereignty and the Western Hemisphere idea: the emergence of an international norm. New-York: Routledge, 2005, p. 54 (302 p.)
6. Makinda S.M., Okumu F.W. The African Union: challenges of globalization, security and governance. New-York: Routledge, 2008, p. 39 (232 p.)
7. www.achpr.org/instruments/kigali/
8. Murray R. Human rights in Africa: from the OAU to the African Union. Cambridge: Cambridge University Press, 2004, p. 193 (360 p.)
9. www.guam-organization.org/en/provision-on-the-secretariat-of-the-organization-for-democracy-and-economic-development-guam/
10. www.guam-organization.org/wp-content/uploads/2017/08/Polnyj-tekst-Programmy-Predsedatelstva-Ukrainy-v-GUAM-na-2015-god.pdf; www.guam-organization.org/wp-content/uploads/2017/03/azerbaijan-chairmanship-2016.pdf
11. Beynəlxalq (publik) hüquq kursu. Dərslik / E.Ə.Əliyevin ümumi redaktəsi ilə. Bakı, «Günəş-B» nəşriyyat-poliqrafiya müəssisəsi, 2018, II cild, xüsusi hissə, 704 s.

## LEGAL REGULATION OF THE COOPERATION BETWEEN REGIONAL INTERGOVERNMENTAL ORGANIZATIONS AND INTERNATIONAL NON-GOVERNMENTAL ORGANIZATIONS

**ElnaraMirzayeva,**
**Associate Professor of the Department of Private International Law and European Law, Faculty of Law, Baku State University PhD in Law.**
e-mail: elnaramirzayeva@mail.ru

In the article, the issues of legal regulation of cooperation between regional intergovernmental organizations and international non-governmental organizations are widely analyzed on the basis of the diversity of opinions existing in the legal literature, norms of international law and international practice. It is concluded that the importance of legal regulation of cooperation between regional intergovernmental organizations and international non-governmental organizations lies in the fact that, on the one hand, it stimulates the participation of civil society in the implementation of the relevant powers of different regional international organizations.On the other hand, the cooperation of international non-governmental organizations with regional intergovernmental structures contributes to the development of civil society, taking into account the relevant regional characteristics.It also has a significant impact on the identification and elimination of existing gaps and shortcomings.

**Key words:** regional intergovernmental organizations, international non-governmental organizations, international organizations, protection of human rights, civil society, international cooperation, regional cooperation.

## ПРАВОВОЕ РЕГУЛИРОВАНИЕ СОТРУДНИЧЕСТВА РЕГИОНАЛЬНЫХ МЕЖПРАВИТЕЛЬСТВЕННЫХ И МЕЖДУНАРОДНЫХ НЕПРАВИТЕЛЬСТВЕННЫХ ОРГАНИЗАЦИЙ

**Эльнара Мирзоева,**
**доцент кафедры «Международное частное право и европейского права», доктор философии по праву.**
электронная почта: elnamirzayeva@mail.ru

В статье широко анализируются вопросы правового регулирования сотрудничества региональных межправительственных организаций и международных неправительственных организаций, исходя из существующего разнообразия мнений в юридической литературе, международно-правовых нормах и международной прак-

тике. Делается вывод о том, что значение правового регулирования сотрудничества региональных межправительственных организаций с международными неправительственными организациями состоит в том, что оно, с одной стороны, поощряет участие гражданского общества в реализации соответствующих полномочий отдельных региональных международных организаций. С другой стороны, сотрудничество международных неправительственных организаций с региональными межправительственными институтами способствует развитию гражданского общества с учетом соответствующих региональных особенностей. Это также оказывает существенное влияние на выявление и устранение имеющихся дефектов и недостатков.

**Ключевые слова:** региональные межправительственные организации, международные неправительственные организации, международные организации, защита прав человека, гражданское общество, международное сотрудничество, региональное сотрудничество.

## BÖLGESEL HÜKÜMETLERARASI KURULUŞLAR VE ULUSLARARASI SİVİL TOPLUM KURULUŞLARIN İŞBİRLİĞİNİN YASAL DÜZENLEMESİ

**Elnara Mirzayeva,**
**Bakü Devlet Üniversitesi, Hukuk Fakültesi, Uluslararası Özel Hukuk ve Avrupa Hukuku Anabilim Dalı,doçent, hukuk alanında felsefe doktoru.**
e-posta: elnamirzayeva@mail.ru

Makalede, bölgesel hükümetlerarası kuruluşlar ve uluslararası sivil toplum kuruluşlarının işbirliğinin yasal düzenlemesi konuları, hukuk literatüründe, uluslararası hukuk normlarında ve uluslararası uygulamada mevcut görüş farklılıklarına dayalı olarak geniş bir şekilde analiz edilmektedir. Bölgesel hükümetlerarası örgütlerin uluslararası sivil toplum örgütleriyle işbirliğine ilişkin yasal düzenlemenin öneminin, bir yandan, bireysel bölgesel uluslararası örgütlerin ilgili yetkilerinin uygulanmasına sivil toplumun katılımını teşvik etmesi olduğu sonucuna varılmıştır. Öte yandan, uluslararası sivil toplum kuruluşlarının bölgesel hükümetler arası kuruluşlarla işbirliği, ilgili bölgesel özellikler dikkate alınarak sivil toplumun gelişimine katkıda bulunmaktadır. Bu aynı zamanda mevcut kusur ve eksikliklerin tespiti ve giderilmesi üzerinde de önemli bir etkiye sahiptir.

**Anahtar Kelimeler:** bölgesel hükümetlerarası kuruluşlar, uluslararası sivil toplum kuruluşları, uluslararası kuruluşlar, insan haklarının korunması, sivil toplum, uluslararası işbirliği, bölgesel işbirliği.